Azərbaycan qazeti, 4 mart, 2004

# “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə

*Azərbaycan Respublikası Prezendentin*
*3 mart 2004-cü il tarixli sərəncamı*

“Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, üç ay müddətində:

1 .1 qüvvədə olan qanunvericilik aktlarının “ Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanuna uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

1.2 Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğulaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikası prezidentinə məlumat versin;

1.3 “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası qanunun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

1.4 həmin qanunun 4.3-cü maddəsində nəzərdə tutulmuş “Dövlət İdarəetiə Şurası yanında Korrupsiyaya qarşı Mübarizə üzrə Komissiya haqqında Əsasnamə”nin layihəsini hazırlayıb Azərbaycan Respublikası prezidentinə təqdim etsin;

1.5 öz səlahiyyətləri daxilində “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası qanunundan irəli gələn digər məsələləri həll etsin;

2 Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi yaradılsın ;

3 Azərbaycan Respublikasının Baş Prokuroru bir ay müddətində Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin səlahiyyətləri, funksiyaları və fəaliyyətinin təmin edilməsi ilə əlaqədər digər məsələlər barədə təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin ;

4 Azərbaycan Respublikasının N azirlər Kabineti aidiyyəti dövlət orqanları ilə ay müddətində “Korrupsiyaya qarşı mübarizə haqqında” Azərbaycan Respublikası qanunun və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəxalq muqavilənin tələblərinə uyğunlaşdırmaqla “Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı”nın layihəsini təkmilləşdirib Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

5 Bu sərəncam imzalandığı gündən qüvvəyə minir.